www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-21 (1760) 15 dekabr 2022-ci il



## ATU-da ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb

**Rektor, professor Gəray Gəraybəyli: Ulu Öndər Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bildi**

səh. 2

### Azərbaycan Respublikasının Prezidenti ATU-nun əməkdaşlarını təltif edib

səh. 2

### Həkimlərimiz Vətən müharibəsi qazisini əməliyyat ediblər

səh. 3

### "Stomatologiyanın aktual problemləri" mövzusunda XXII beynəlxalq elmi-praktik konfrans keçirilib

səh. 5



### Ulu Öndərin anım günü ilə əlaqədar iməcilik keçirilib

Professor Gəray Gəraybəyli: Təbiətin, ekologiyanın qorunması həmişə Ulu Öndərin diqqət mərkəzində idi

səh. 2

### Milli Ordumuzun şərəfini qoruyacaq məzunlarımız

*Hərbi tibb fakültəsində rezidentlərin yeni buraxılışı olub*

səh. 3

### Ölkəmizdə müasir cərrahiyyənin ustadlarından biri

*Professor Çərkəz Cəfərovun 80 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib*

səh. 4



### Şəhidin övladı təntənəli mərasimlə evə yola salınıb

Mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, şəhidin döyüş yoldaşları iştirak ediblər

səh. 3

## Azərbaycan Respublikasının Prezidenti ATU-nun əməkdaşlarını təltif edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif olunması haqqında sərəncamlar imzalayıb. Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə təltif olunanlar arasında Azərbaycan Tibb Universitetinin əməkdaşları da var.

Əməkdar elm xadimi, İnsan anatomiyası kafedrasının müdiri, professor Şadlinski Vaqif Bilas oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib, Əməkdar elm xadimi, Daxili xəstəliklər kafedrasının müdiri, professor Məmmədhəsənov Rafiq Musa oğlu və III Cərrahi xəstəliklər kafedrasının professoru Nəsirov Məmməd Yahya oğlu isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif ediliblər.

Qocaman professorlarımızı universitetimizin kollektivi adından təbrik edir, yeni-yeni uğurlar arzulayırıq!

# ATU-da ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb

## Rektor, professor Gəray Gəraybəyli: Ulu Öndər Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bildi

**Bu gün Azərbaycan Tibb Universitetində ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş mərasim keçirilib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Azərbaycan xalqının ümummilli lideri, müasir, müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin Azərbaycan tarixində ən böyük şəxsiyyətlərdən biri olduğunu bildirib: "Azərbaycanın 30 ildən artıq bir dövrünün hərtərəfli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun xalqımız, dövlətimiz və tariximiz qarşısında xidmətləri misilsizdir. Tarix onun dahiliyini və uzaqgörənliyini hər dəfə təsdiq edir. Keçmiş günlərə nəzər saldıqda, ulu öndərin Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bildiyini görürük. O zaman müxtəlif qüvvələrin təsiri nəticəsində Azərbaycanın dövlətçiliyi, ərazi bütövlüyü sual altında idi. Məhz Heydər Əliyevin müdaxiləsi, onun yürütdüyü müdrik siyasət nəticəsində bu təhlükələr sovuşdu. Azərbaycan dövlətçiliyi bütün qüvvələrə qalib gəldi".

Rektor bildirib ki, ulu öndərin fəaliyyətinin hər günü sülhün, insanlığın, demokratiyanın təntənəsinə, inkişafa, abadlığa, firavanlığa xidmət edib: "Bu gün əminliklə, tam qətiyyətlə deyə bilərik ki, ümummilli liderimizin bütün arzuları reallaşmışdır. Ulu öndərin siyasi varisi, Ali Baş Komandanımız, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında müqəddəs torpaqlarımız düşməndən azad edilmiş, bütün Azərbaycan abadlıq meydanına çevrilmişdir. Ölkəmiz təkcə regionun deyil, bütün dünyanın qabaqcıl və qüdrətli dövlətlərindən biridir. İndi ölkəmizin adı dünyanın ən mötəbər yığıncaqlarında, beynəlxalq tədbirlərdə qürur və ehtiramla çəkilir. Dövlət rəhbərimiz, cənab prezident İlham Əliyevin nüfuzu, misli görünməmiş sərkərdəlik şücaəti və diplomatik qərarları Azərbaycanı ən uca zirvələrə qaldırmışdır".



Epidemiologiya kafedrasının müdiri İbadulla Ağayev çıxış edərək Heydər Əliyevin Azərbaycanın tərəqqisi, inkişafı naminə atdığı addımları xatırladıb: "Elə bir qüdrətli şəxsiyyət idi ki, dünyanın ən böyük siyasətçiləri onunla bir masada oturmağa cəsarət etmirdilər. O, nitqində malik olduğu kamillik və zabitəli xarakteri ilə daim digər dövlət rəhbərlərindən seçilirdi. Ulu öndərin Azərbaycan naminə atdığı möhtəşəm addımlar heç zaman unudulmayacaq".

Tibbi terminologiya və anatomiya kafedrasının müdiri Anar Abdullayev Heydər Əliyevin hər bir Azərbaycan vətəndaşının ən ülvi hisslərini, səmimi sevgisini, məhəbbətini qazanmış dahi şəxsiyyət olduğunu vurğulayıb: "Məhz ulu öndərin sayəsində Azərbaycanın dünya arenasında yeri, mövqeyi addım-addım, qətiyyətlə möhkəmləndirilmişdir. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub".

Daha sonra ATU-nun 3-cü kurs tələbəsi Məhəmməd Məmmədov ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. O, ulu öndərin gənclərin rifahı üçün yaratdığı imkanlardan, gənc nəslin inkişafına göstərdiyi davamlı qayğıdan söz açıb.

Sonda tədbir iştirakçıları ümummilli liderin zəngin həyat və yaradıcılığını əks etdirən filmi izləyiblər.



# Ulu Öndərin anım günü ilə əlaqədar iməcilik keçirilib

## Professor Gəray Gəraybəyli: Təbiətin, ekologiyanın qorunması həmişə Ulu Öndərin diqqət mərkəzində idi

Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar olaraq Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsi və Təsərrüfat-təchizat şöbəsinin birgə təşkilatçılığı ilə universitetin həyətyanı sahəsində iməcilik keçirilib. Universitetin rektoru, professor Gəray Gəraybəyli, prorektorlar, kafedra müdirləri, müəllim və texniki işçilərin iştirak etdiyi iməcilik çərçivəsində müxtəlif ağac tingləri, güllər, dekorativ bitkilər əkilib.

Professor Gəray Gəraybəyli aksiya ilə bağlı fikirlərini "Təbib" qəzetinin əməkdaşı ilə bölüşüb. Rektor bildirib ki, universitetdə ənənəvi olaraq neçə ildir ki, ulu öndərin anım günü münasibətilə iməcilik keçirilir: "Bu il də ənənəmizə sadiq qaldıq. Ümumiyyətlə, çalışırıq ki, universitetdə tələbələrimiz həm keyfiyyətli şəkildə təhsil ala, həm də asudə vaxtlarını səmərəli keçirə bilsinlər. Doğrudur, pandemiya dövründə bir sıra ənənəvi tədbirlərimizi mövcud şəraitə görə təxirə salmalı olduq. Amma artıq iki ildir ki, anım günü ərəfəsində iməcilik ənənəsini bərpa etmişik. Təbiətin, ekologiyanın qorunması həmişə ulu öndərin diqqət mərkəzində idi. Biz də bu məqsədlə universitetimizin həyətində ağac və gül kolları əkirik. Əminəm ki, bu gün əkdiyimiz ağaclar bir neçə ilə böyüyəcək, onların kölgəsində müəllim və tələbələrimiz istirahət edəcəklər". Universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov bizimlə söhbətində bildirib ki, ulu öndərin anım günü ilə əlaqədar, rektor, professor Gəray Gəraybəyli universitetin həyətyanı sahəsində iməcilik təşkil edilməsi ilə bağlı göstəriş verib. Bu məqsədlə əkmək üçün kifayət qədər ağac və güllər alınıb: "Universitetin əməkdaşları bu iməcilikdə fəal iştirak edirlər. 2 saylı yataqxananın həyəti istiqamətində nar, alça, albalı, ərik ağacları da əkdik. İnanıram ki, bir neçə ilə əkdiyimiz meyvə ağaclarının barını da görəcəyik".

İməcilikdən sonra professor G.Gəraybəyli 2 saylı yataqxanada təşkil olunan "Qonaq evi" və bəzi korpuslarda təchizatın vəziyyəti ilə də tanış olub.

# ATU-da nüfuzlu beynəlxalq konfrans keçiriləcək

**Pakistan universitetinin rəhbərliyi ilə onlayn görüşdə tədbirə hazırlıq işləri müzakirə olunub**





**Azərbaycan Tibb Universiteti və Pakistanın Riphah Beynəlxalq Universitetinin (RBU) birgə təşkilatçılığı ilə 2023-cü ilin oktyabr ayında ATU-da tibb təhsili üzrə beynəlxalq konfrans (ICME) keçiriləcək.**

ICME beynəlxalq səviyyədə tanınan konfrans olub, əsas missiyası tibb təhsili üzrə dünyanın aparıcı mütəxəssislərini və pedaqoqları bir araya gətirərək, bu sahədəki son yenilikləri və standartları müzakirə etməkdir. Bu beynəlxalq tədbir iki ildən bir keçirilir. Daha öncəki konfranslar Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Mavritaniya, Türkiyə və İndoneziyada baş tutub.

ATU-da keçiriləcək konfransa hazırlıq işləri ilə əlaqədar hər iki universitetin işçi qrupunun onlayn görüşü təşkil edilib. Görüşdə ATU tərəfdən rektor, professor Gəray Gəraybəyli, Elmi işlər üzrə prorektor, dosent Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Tibbi tədqiqatlar üzrə koordinator Sevil Əsədova, RBU tərəfdən isə rektor Hassan Khan, prorektorun müavini, professor Yavər Hayat, Sağlamlıq və tibb elmləri fakültəsinin dekanı, ICME-nin prezidenti, general Azhar Rashid, Qiymətləndirmə İnstitutunun dekanı, professor Rehan Ahmed, Riphah Elmi-tədqiqat və Təhsil Akademiyasının dekanı, professor Rahila Yasmeen və Akademik işlər üzrə menecer Zia Ullah iştirak edib. Görüşdə konfransın təşkili ilə bağlı müxtəlif xarakterli məsələlər müzakirə olunub, fəaliyyət planının tərtibi və bu plana uyğun olaraq cari işlərin həyata keçirilməsi qərara alınıb.

Təşkilati işlərin səmərəliliyinin artırılması məqsədilə hər iki universitetin nümayəndə heyətlərinin qarşılıqlı ezam olunmasına razılıq verilib.

**Beynəlxalq Türk dünyası Dağınıq Skleroz Konqresinin növbəti toplantısının Bakıda Azərbaycan Tibb Universitetinin ev sahibliyi ilə baş tutacağı planlaşdırılır. Bu barədə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin Türkiyənin Sağlamlıq Elmləri Universitetinin nümayəndə heyəti ilə görüşü zamanı müzakirələr aparılıb.**



# Universitetimiz növbəti beynəlxalq konqresə ev sahibliyi edəcək

## Beynəlxalq Türk Dünyası Dağınıq Skleroz Konqresinin təşkili ilə bağlı müzakirələr aparılıb

Sağlamlıq Elmləri Universitetinin nevrologiya üzrə mütəxəssisi, professor Şərəf Dəmirkaya artıq dörd ildir keçirilən Konqres barədə məlumat verərək, bu tədbirin məqsədinin Türkiyə və türkdilli ölkələrdə dağınıq skleroz sahəsində çalışan mütəxəssislər arasında məlumat mübadiləsi təşkil etməkdən ibarət olduğunu bildirib. Professor Ş.Demirkaya ilk Konqresin 2019-cu ildə Ankarada keçirildiyini, sonradan tədbirə dost və qardaş ölkələrdəki məsləkdaşları tərəfindən böyük diqqət olduğunu nəzərə alaraq, növbəti illərdə tədbirin hər dəfə başqa bir ölkədə keçirilməsinin qərara alındığını deyib. 4-cü toplantı ötən il Özbəkistanın Səmərqənd şəhərində gerçəkləşib. Professor beşinci beynəlxalq toplantının ATU-nun ev sahibliyi ilə Bakıda təşkil olunmasını təklif edib.

Professor Gəray Gəraybəyli təklifə görə qonaqlara təşəkkür edərək, universitet tərəfindən bu konqresin Bakıda təşkili üçün zəruri olan addımların atılacağını bildirib. Rektor qeyd edib ki, belə bir beynəlxalq tədbirin Bakıda təşkili bu sahədə işləyən mütəxəssislərin təcrübəsini paylaşması, həm də ortaq çalışma və araşdırmalarla ölkələr arasındaki işbirliyini gücləndirmək üçün gözəl imkandır. Professor G.Gəraybəyli 2023-cü ilin iyun ayında keçirilməsi planlaşdırılan Beynəlxalq Türk Dünyası Dağınıq Skleroz Konqresinin həm Azərbaycan, həm də türk dünyasındakı nevroloqların işinə önəmli töhfə verəcəyindən əminliyini vurğulayıb.

Görüş iştirakçıları 2023-cü il iyun ayında Bakıda 5-ci Beynəlxalq Türk Dünyası Dağınıq Skleroz Konqresinin təşkilinin detallarını müzakirə ediblər. Tədbirin təşkili ilə bağlı fikir mübadiləsində ATU-nun Elmi işlər üzrə prorektoru Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor Orxan İsayev, ATU-nun Nevrologiya kafedrasının müdiri Aytən Məmmədbəyli və Rəhim Əliyev də iştirak edirdilər.

# Şəhidin övladı təntənəli mərasimlə evə yola salınıb

**Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribatların qarşısını alarkən bu il sentyabrın 12-dən 13-nə keçən gecə şəhid olan gizir Vadim Qocayevin yeni doğulan körpəsi xəstəxanadan evə buraxılıb.**



Şəhidin övladı noyabrın 25-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının könüllü həkimi, ginekoloq Səidə Vəliyevanın nəzarəti altında dünyaya gəlib. Klinikanın Neonatologiya şöbəsinin müdiri Aygün Rüstəmxanlının verdiyi məlumata görə, körpənin çəkisi 2 kq 900 qramdır. Şəhidin xanımı və övladı dörd gün könüllü həkimlərimizin nəzarətində olub, aktiv qidalanıb. Evə buraxılan şəhidin xanımı 2 həftə müddətində nəzarətdə saxlanılıb.

Körpənin evə yola salınması mərasimində Müdafiə Nazirliyinin rəsmiləri, şəhidin döyüş yoldaşları və ailə üzvləri iştirak ediblər.

V.Qocayevlə uzun müddət bir yerdə xidmət etdiyini deyən Elvin Rəsulov Vətən müharibəsində onunla çiyin-çiyinə döyüşdüyünü bildirib: "Müharibədə mən yaralandım, amma Vadim xidmətini davam etdirirdi. O, övladının doğulmasını səbirsizliklə gözləyirdi. Zeyd ikinci övladıdır, bu gün həm də qızı İlaydanın bir yaşı tamam olur".

Qeyd edək ki, 1997-ci il yanvarın 10-da Qobustan rayonunun Sündü kəndində doğulan Vadim Alik oğlu Qocayev 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. O, müharibədən sonra Prezident İlham Əliyevin sərəncamları ilə "İgidliyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Dövlət başçısının 2022-ci il noyabrın 5-də imzaladığı digər sərəncama əsasən, V.Qocayev "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalına layiq görülüb.

Təəssüf hissi ilə onu da xatırladaq ki, şəhidin atası Alik Qocayev oğlunun şəhid olması xəbərini eşidəndən sonra ürək tutmasından vəfat edib.

# Həkimlərimiz Vətən müharibəsi qazisini əməliyyat ediblər

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkimləri Vətən müharibəsinin ilk günündən qazilərimizin qulluğunda dayanaraq onların sağlamlığının bərpası uğrunda çalışıblar. Klinikanın kollektivi tərəfindən savaşda yaralanmış hərbçilərimizə bu gün də zəruri tibbi xidmət göstərilməkdədir.**



Vətən müharibəsində yaralanmış qazi Elşən İsmayılov bu günlərdə klinikada ikinci dəfə əməliyyat olunub. Bu haqda məlumat verən klinikanın Transplantologiya şöbəsinin müdiri Anar Namazov bildirib ki, qazi E.İsmayılov döyüş zamanı qarın boşluğu və döş qəfəsindən mərmi yarası alıb: "Həmin vaxt E.İsmayılov Naftalanda hospitalda ilkin əməliyyat olunmuşdu. Splenektomiya (dalağın xaric olunması) aparılmış, döş qəfəsi BLAU üsulu ilə drenaj edilmiş və körpücük sümüyünün sınığı ı fiksasiya olunmuşdu. Sonradan qazimizin müalicəsi klinikamızda davam etdirildi. Səhhəti yaxşılaşdıqdan sonra E.İsmayılov evə yazıldı. Lakin növbəti müayinələrdə E.İsmayılovda əməliyyatdan sonrakı yırtıq aşkar olundu. YAŞAT Fondu və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə qazi tərəfimizdən laparoskopik üsulla əməliyyat olundu və yırtıq aradan qaldırıldı".

Hazırda klinikada müalicəsini davam etdirən qazi E.İsmayılov 25 ilə yaxın hərbi xidmətdə olduğunu, müharibədən öncə 2016-cı ilin Aprel döyüşlərində iştirak etdiyini bildirib: "44 günlük Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində döyüşmüşəm. 2020-ci il oktyabrın 3-də Suqovuşanı azad etdik. Növbəti gün isə döyüşdə ağır güllə və qəlpə yaraları aldım. Ağır vəziyyətdə Naftalandakı hospitala təxliyə olunmuşam. İlk təcili əməliyyatdan sonra isə Bakıya göndərilmişəm. Tədris Cərrahiyyə Klinikasında Anar doktor və tibbi heyətin köməkliyi ilə sağlamlığıma qovuşub, ailəmin yanına qayıtmışam".

# Milli Ordumuzun şərəfini qoruyacaq məzunlarımız

## Hərbi tibb fakültəsində rezidentlərin yeni buraxılışı olub

**ATU-nun Hərbi tibb fakültəsinin rezidentura və tibb heyətinin təkmilləşmə kursunda yüksək əzmkarlıq göstərərək hərbi biliklərə yiyələnən, tibb sahəsində ixtisaslaşaraq yeni təyinat alıb ordu sıralarına yollanan məzunlara həsr olunmuş tədbir keçirilib.**






Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Bundan sonra fakültənin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov təhsil aldıqları müddətdə çalışqanlığı, nizam-intizamı, yüksək əxlaqi tərbiyə və mənəvi dəyərləri ilə seçilən məzunları təbrik edib. Bildirib ki, 2022-ci ildə rezidentura təhsilini başa vuran 19 məzunumuz var və onlardan biri Türkiyədə təhsilini davam etdirir.

İxtisaslı həkim olmaları üçün rezidentlərə fakültə tərəfindən hər cür köməklik göstərildiyini söyləyən fakültənin rəisi, Səhiyyə Nazirliyinin aparıcı tibb müəssisələrinin də rezidentlərə dəstək verdiklərini məmnunluqla vurğulayıb. O, rezidentlərə peşəkar mütəxəssislərin təhsil proqramlarına uyğun olaraq dərs keçdiklərini və məhz bu nöqteyi-nəzərdən onların hazırlığının yüksək səviyyədə olduğunu söyləyib. Onu da xatırladıb ki, bundan əvvəlki rezidentlərimiz hazırda Naxçıvan Muxtar Respublikasının xəstəxanalarında və diaqnostika mərkəzində əsgər və zabitlərimiz, onların ailə üzvləri ilə yanaşı, əhalinin digər təbəqələrinə də yüksək səviyyəli tibbi yardım göstərirlər. Polkovnik Ç.Əlləzov hazırlıq səviyyəsinə güvəndikləri rezidentlərin Milli Ordumuzda şərəflə xidmət edəcəklərinə əminliyini bildirərək, onlara gələcək fəaliyyətlərində uğurlar diləyib.

Milli Müdafiə Universiteti rektorunun tədris işləri üzrə müavini, polkovnik Arzu İsmayılov, Elmi Tədqiqat İnstitutu rektorunun müavini, polkovnik Arif Həsənov və tibb xidməti polkovnik-leytenantı Namiq Əliyev də gənc həkim-rezidentləri Azərbaycan Ordusunda xidmətə başlamaları münasibətilə təbrik edib, onların hər birinə uğurlu fəaliyyət arzulayıblar.

Məzunlar adından çıxış edən tibb xidməti kapitanı Elnur Əliyev bu əlamətdar gündə onlara dəstək olan hər kəsə, xüsusilə də Hərbi tibb fakültəsinin kollektivinə təşəkkürünü bildirib. Qeyd edib ki, həm həkimlik, həm də müəllimlik şərəfli peşədir: "Ancaq hansı peşənin sahibi olursansa-ol, əsas məsələ layiqli vətəndaş olmağı bacarmaqdır. Əgər Hippokrat andı peşə andımız sayılırsa, hərbi and də vətənimizə, millətimizə, dövlətimizə sədaqət andıdır. Tibb xidməti zabiti olsam da, özümü bu gün də, sabah da vətənimin, millətimin əsgəri sayıram. Orduda hərbi həkim kimi xidmət etmək, vətənimə, xalqıma töhfə vermək mənim üçün, bütün həmkarlarım üçün fəxrdir".

Daha sonra fakültə rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə baş köməkçisi, polkovnik-leytenant Yaqub Qasımov 2021/2022-ci tədris ili üçün yekun attestasiyadan müvəffəqiyyətlə keçərək rezidenturanı bitirmiş şəxslərə müvafiq ixtisaslar üzrə həkim-mütəxəssis ali peşə dərəcəsi və dövlət nümunəli diplomun verilməsi barədə Səhiyyə Nazirliyinin, eləcə də 2022-ci ilin noyabr ayında ATU-nun Hərbi tibb fakültəsinin rezidentura və təkmilləşmə kursunu bitirmiş zabitlərin müvafiq vəzifələrə təyin olunması haqqında Müdafiə Nazirliyinin əmrlərini oxuyub.

Buraxılış mərasimində kursantlar məzunlara təbriklərini musiqi nömrələri və şeir nümunələri ilə çatdırıblar.

Tədbirin sonunda məzunlar 2017-2022-ci il rezidentura təhsili müddətində göstərdikləri xidmətə görə xüsusi təşəkkürnamə ilə mükafatlandırılıblar.

**Dekabrın 2-də Nəsimi rayon Ağsaqqallar Şurasının ATU-da yeni özəyinin yaradılması məqsədilə yığıncaq keçirilib. İclası universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açaraq son zamanlar Nəsimi rayon Ağsaqqallar Şurasının fəaliyyətində böyük irəliləyiş olduğunu diqqətə çatdırıb.**



# ATU-da Nəsimi rayon Ağsaqqallar Şurasının özəyi yaradılıb

Cəmiyyətdə, xalq arasında ağsaqqal sözünə həmişə yüksək qiymət verildiyini deyən prorektor qeyd edib ki, professor Vaqif Şadlinskinin şuraya sədr seçilməsindən sonra bu fəaliyyət daha da güclənib. Belə ki, Nəsimi rayonunun ərazisində yerləşən ali məktəblərdə, ayrı-ayrı idarə və müəssisələrdə hər ay müxtəlif tədbirlər keçirilir, ahıl insanlara, şəhid ailələrinə, qazilərə xüsusi diqqət və qayğı göstərilir. S.Əliyev torpaqlarımızın işğaldan azad edilməsində qəhrəmanlıq göstərən gənc nəslin tərbiyəsində onların ailələrinin, ağsaqqallarının böyük rolundan, bu baxımdan ağsaqqallarımıza daim ehtiram göstərməyin vacibliyindən söhbət açıb.

Bundan sonra Nəsimi rayon Ağsaqqallar Şurasının sədri, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru Vaqif Şadlinski çıxış edərək, şuranın strukturu haqqında ətraflı məlumat verib. Nəsimi rayonunun Bakı şəhərinin 12 rayonu içərisində ərazicə kiçik, əhali sayına görə isə ən böyük rayon olduğunu söyləyib. O, rayonun ərazisində 12 ali məktəbin, böyük səhiyyə ocaqlarının, bir neçə nazirliyin yerləşdiyinə diqqət çəkərək, burada fəaliyyət imkanlarının da geniş olduğunu bildirib. Onu da vurğulayıb ki, rayonda 70 min ziyalının olduğunu nəzərə alsaq, işlər yaxşı getməlidir. Xüsusilə, gənclərlə tərbiyə işlərinə hər zaman diqqət yetirilməlidir.

Natiq ölkəmizdə həyata keçirilən inkişaf prosesi ilə bağlı ağsaqqallar tərəfindən əhali, xüsusilə gənclər arasında maarifləndirmə işinin aparılmasının, eyni zamanda rayonun ictimai-siyasi həyatında ağsaqqalların yaxından iştirak etməsinin zəruriliyindən danışıb.

Bəzi ağsaqqallarımızın yaddan çıxdığını təəssüflə bildirən şura sədri, bu istiqamətdə hələ çox işlər görülməli olduğunu, vaxtilə xalq qarşısında böyük xidmətləri olan həkimlərin, müəllimlərin yubileylərinin ayrı-seçkiliyə yol verilmədən keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Bu nöqteyi-nəzərdən Azərbaycan Tibb Universitetinin potensialından səmərəli istifadə ediləcəyinə əminliyini ifadə edib.

Yığıncağın sonunda ATU-da Nəsimi rayon Ağsaqqallar Şurasının 25 nəfərdən ibarət özəyi yaradılıb. Ortopedik stomatologiya kafedrasının məsləhətçi professoru Zöhrab Qarayev özəyin sədri, Tibbi və bioloji fizika kafedrasının professoru Hüseyn Abıyev və II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli isə sədr müavinləri seçiliblər.

# TEC-in növbəti il üçün fəaliyyət proqramı müzakirə olunub

**ATU-nun Elmi işlər üzrə prorektoru Rauf Bəylərov universitetin Tələbə Elmi Cəmiyyətinin Şura üzvləri ilə görüşüb. Görüş zamanı 2023-cü ildə TEC-in fəaliyyəti və keçiriləcək tədbirlər planı geniş müzakirə olunub.**



Görüşdə Tələbə Elmi Cəmiyyətinin Elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov çıxış edərək, TEC-in fəaliyyət proqramı haqqında məlumat verib. Daha sonra gələn ilin aprelində keçirilməsi planlaşdırılan Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq Konqresin təşkilati məsələləri müzakirə olunub.

# Pedaqoji peşəkarlığa diqqət yetirilir

**ATU-da yeni yaradılan Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əsas fəaliyyət istiqamətlərindən biri tələbələrlə işdirsə, digəri də pedaqoji heyətlə bağlıdır.**





Kafedra müdiri Samir Cavadlının sözlərinə görə, pedaqoji peşəkarlığın artırılması əsas amillərdəndir: "Bu istiqamətdə işlərimizə başlamışıq. Müəllimlərimiz tərəfindən mövzular seçilir və bu mövzular üzrə seminarlar keçirilir. Universitet rəhbərliyi ilə görüşdə tövsiyə olundu ki, bu seminarlara kafedra əməkdaşları ilə yanaşı, internet vasitəsilə digər müəllimlərin də qoşulması təmin edilsin. Nəticədə, əhatə dairəsini genişləndirmiş oluruq. Artıq iki seminar keçirmişik".

Xatırladaq ki, sonuncu seminar kafedranın assistenti Aydan Qədimlinin təqdimatında "Öyrənmə nəzəriyyələri: paradiqmalar və istiqamətlər" mövzusuna həsr olunub.

Məlumat üçün deyək ki, seminarlar 2 həftədən bir olmaqla, cümə günləri saat 14:30-da baş tutacaq, "youtube" üzərindən canlı yayımlanacaq.

S.Cavadlı bildirib ki, ATU-da bu kafedra yaradılarkən Türkiyə universitetlərindən dəstək göstərilib. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndə heyəti ilə görüşdən sonra onların dəstəyi ilə 9 Eylül, Hacettepe, 19 Mayıs və Ege universitetlərindən gələn müəllimlər təlimlər keçiblər. Kafedrada bu istiqamətdə işlər davam etdirilir.

# "Təcrübədən tədrisə" layihəsinə start verilib

**Noyabrın 30-da Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasında "Təcrübədən tədrisə" layihəsinə start verilib. Layihənin əsas məqsədi tələbələrdə seçdikləri ixtisasa maraq yaradılması və motivasiyalarının artırılmasıdır.**



Bu məqsədlə respublikamızın tanınmış mütəxəssislərinin müxtəlif mövzular üzrə mühazirələr oxuması və tələbələrin suallarının cavablandırması planlaşdırılıb. İlk qonaq kimi V.Axundov adına ETTPİ-nin Peşə xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Sevda Xəlilova dəvət edilmişdi. Əvvəlcə kafedranın müdiri, dosent Şəhla Balayeva tələbələrə layihənin məqsədi haqqında məlumat verdi və qonağı təqdim etdi. Daha sonra S.Xəlilova İctimai səhiyyə fakültəsinin III kursunda "İstehsalatda müxtəlif mikroiqlim şəraitində baş verən peşə xəstəlikləri" mövzusu üzrə mühazirə oxudu.

Tələbələrin aktivliyi ilə seçilən mühazirənin sonunda t.ü.f.d. S.Xəlilova və dosent Ş.Balayeva tərəfindən onların çoxsaylı sualları cavablandırıldı.

# Ölkəmizdə müasir cərrahiyyənin ustadlarından biri

## Professor Çərkəz Cəfərovun 80 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib

**Dekabrın 2-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında əməkdar həkim, tibb elmləri doktoru, Ümumi cərrahlıq kafedrasının məsləhətçi-professoru Çərkəz Cəfərovun 80 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib. ATU-nun Elmi işləri üzrə prorektoru, dosent Rauf Bəylərov tədbir iştirakçılarını universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayaraq bildirib ki, görkəmli tibb xadimlərinin, tanınmış həkimlərin yubileylərinin keçirilməsi universitetimizdə artıq bir ənənəyə çevrilib.**

Yubilyar haqqında qısa məlumat verən prorektor deyib: "Bu gün yubileyini qeyd etdiyimiz Çərkəz müəllim də onlardan biridir. Çərkəz Cəfərov 1942-ci ildə Şərur rayonunun Dəmirçi kəndində doğulub. 1959-cu ildə kənd orta məktəbini bitirib Tibb İnstitutuna daxil olub. O, universiteti başa vurduqdan sonra 4 saylı Bakı şəhər klinik xəstəxanasının köks cərrahlığı şöbəsinə işə göndərilib. Çərkəz müəllim çətin, lakin şərəfli bir həyat yolu keçib. Gərgin əməyi sayəsində aspirantlıqdan professorluğa qədər





uzun bir yol qət edib, uzun illər Ümumi cərrahlıq kafedrasına rəhbərlik edib. 250-dən çox elmi məqalə və tezis, 2 dərslik, 3 monoqrafiya, 5 ixtira, 1 patent və 5 səmərələşdirici təklifin müəllifidir".

Sonra Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayev yubilyarın həyat və fəaliyyəti haqda geniş məruzə ilə çıxış edib. O, bildirib ki, Çərkəz müəllim ölkəmizdə müasir cərrahiyyənin ustadlarından biri kimi tanınır. Onun həyata keçirdiyi unikal cərrahi əməliyyatlar bu gün çox böyük əhəmiyyətə malikdir: "Çərkəz müəllim əmək fəaliyyətinə köks cərrahlığından başlamış və 1967-ci ildə bu şöbə Elmi-Tədqiqat Kliniki və Eksperimental Təbabət İnstitutuna (ETKETİ) verildiyindən, orada işləmişdir. 1971-ci ildə Leninqrad şəhərinə Ümumittifaq Elmi Tədqiqat Pulmonologiya İnstitutuna ezam olunmuş və 1973-cü ildə «Xroniki qeyri-spesifik pnevmoniyaların cərrahi müalicəsinə göstərişlər» mövzusunda namizədlik dissertasiyası müdafiə etdikdən sonra yenidən ETKETİ-yə qayıtmışdır. 1976-cı ildə müsabiqə yolu ilə ETKETİ-nin köks cərrahlığı şöbəsinə baş elmi işçi seçilmişdir. O, bu şöbədə bronxoloji xidməti təşkil etmiş, ağciyərin irinli və parazitar xəstəlikləri ilə əlaqədar elmi-təcrübi işlə məşğul olmuşdur. 1982-1987-ci illərdə İ.M.Seçenov adına I Moskva Tibb İnstitutuna ezam olunmuş və «Traxeyanın və onun bifurkasiyasının rezeksiyası və protezlənməsi» mövzusunda doktorluq dissertasiyası müdafiə etdikdən sonra yenidən ETKETİ-də elmi fəaliyyətini davam etdirmişdir".

Ç.Cəfərov 1995-ci ildə müsabiqə yolu ilə ATU-nun Ümumi cərrahlıq kafedrasına rəhbər seçilir və bu illər ərzində tədris planını müasir səviyyəyə qədər təkmilləşdirir. Onun rəhbərliyi altında tədrislə yanaşı, kafedralarda bir sıra əməliyyatlar zamanı üzvlərin açıq və qapalı zədələnmələrinin diaqnostikası və cərrahi müalicəsi ilə əlaqədar təcrübi və elmi tədqiqat işləri aparılır. Ümumi cərrahlığın tədrisi keyfiyyətini yaxşılaşdırmaq üçün 2006-cı ildə elmin müasir səviyyəsinə uyğun yenilikləri özündə əks etdirən «Ümumi cərrahlıq», 2009-cu ildə «Kliniki və eksperimental cərrahlıq» dərsliklərini çap etdirib tələbələrin istifadəsinə verir.

Professor E.Ağayev qeyd edib ki, bütün bunlarla yanaşı, Çərkəz müəllim həm də yaxşı qələm sahibidir. Onun son illərdə yazdığı "Etiraf" kitabı ədəbi mühitdə öz orijinallığı ilə seçilir. O, mükəmməl üsluba malik yazıçı kimi də bu gün oxucuların sevimlisidir.

Tədbirdə çıxış edən ATU-nun professorları Məmməd Nəsirov, Məcid Məsimov, Məhəmməd Kərimov və dosent Səba Bağırova yubilyarla bağlı öz ürək sözlərini və xatirələrini səsləndiriblər. Onun xalqına bağlı bir insan olduğunu dilə gətirən natiqlər deyiblər ki, Çərkəz müəllim sadəliyi, şəxsiyyəti və insanlarla davranışı ilə nümunəvi bir alim, gözəl dost və qayğıkeş ailə başçısıdır. O, daim tövsiyə və məsləhətləri ilə doğma kollektivdə hər kəsə kömək etməyə çalışır, hamının böyük hörmətini qazanıb.

Sonda professor Çərkəz Cəfərov yubiley tədbirinin belə yüksək səviyyəli və yaddaqalan təşkilinə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə, həmkarlarına və eləcə də bütün tədbir iştirakçılarına dərin təşəkkürünü bildirib.

Elmi konfrans öz işini "Cərrahiyyənin aktual problemləri"nə həsr olunmuş elmi məruzələrlə davam etdirib.

# Əməkdaşlarımız Doktorant və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransında çıxış edib

**Noyabrın 23-24-də Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutunun təşkilatçılığı ilə Doktorant və Gənc Tədqiqatçıların XXV Respublika Elmi Konfransı - NASCO-XXV keçirilib.**

Bu il konfrans Azərbaycanın qədim şəhəri Şuşanın 270 illik yubileyinə həsr olunub. Konfransın açılışından öncə iştirakçılar Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Konfrans Bakı Ali Neft Məktəbində keçirilib, iclaslar bu ali təhsil ocağının modern üslubda inşa olunmuş Bibiheybət kampusunda baş tutub.

Dövlət Himni səsləndirildikdən sonra NASCO təşkilat komitəsinin sədr müavini, Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru Rüfət Əzizov hesabat çıxışı edib. Bundan sonra elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək, elmin inkişaf perspektivlərini dərindən təhlil edib, bütün iştirakçılara uğurlar arzulayıb. Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımovun çıxışından sonra bölmə iclasları keçirilib. Konfransın bölmə iclasları məhsuldar müzakirə, geniş prezentasiyalarla zəngin olub. Tibb elmləri bölməsinin iclası da istisna olmayıb. Ümumiyyətlə, konfransa təqdim olunan işlər obyektiv və dərin yoxlamadan keçirilib, konfransa yalnız ən perspektivli işlər buraxılıb. Tibb elmləri bölməsinə




Azərbaycan Tibb Universitetinin I Daxili xəstəliklər kafedrasından Aygün Kazımlı və ATU-nun dosenti Törə Sadıqova rəhbərlik ediblər. Bölmədə ATU-nun İnsan anatomiyası kafedrasından – kafedra müdiri, dosent Anar Abdullayev, dosent, tibb elmləri doktoru Səbinə Şadlinskaya, dosent Gülnarə Kərimzadə, kafedranın doktorantı, tibb üzrə fəlsəfə doktoru Nailə Əliyeva, eləcə də Sitologiya, embriologiya və histologiya kafedrasının baş müəllimi Aygün Əliyarbəyova, Məhkəmə təbabəti kafedrasının əməkdaşı Gülşən Hüseynova çıxış ediblər. Bütün çıxışlar təqdimat üslubu və məzmunu ilə fərqlənib. A.Abdullayev, S.Şadlinskayanın çıxışı "Yuxu-maili dəliyin rastgəlmə tezliyinə dair", G.Kərimzadənin "Canlı insanda normada üz kanalının müxtəlif seqmentlərində diametrlərinin ölçüləri", N.Əliyevanın "Normada insanın qaraciyərdaxili öd axacaqlarının limfoid törəmələrinin makro-mikroskopik anatomiyası", A.Əliyarbəyovanın "Ağciyərlərdə makrofaqlar populyasiyasının kompleks mikroskopik təhlili", G.Hüseynovanın isə "Öz boyu hündürlüyündən yıxılma zamanı ölümcül zədələnmələrin patoloji müayinəsi" mövzularına həsr olunub.

Sonda hesabat iclası keçirilib, konfransın nəticələri müzakirə edilib. Əməkdaşlarımız Anar Abdullayev və Səbinə Şadlinskayanın çıxışı hesabat iclasında xüsusi qeyd olunub. Həmçinin konfrans iştirakçılarına sertifikatlar verilib.

# Azərbaycan Stomatoloji Assosiasiyası - 25

## "Stomatologiyanın aktual problemləri" mövzusunda XXII beynəlxalq elmi-praktik konfrans keçirilib

**Azərbaycan Stomatoloji Assosiasiyasının (ASA) 25 illiyinə həsr olunmuş konfranslar silsiləsinə start verilib. Bu silsilədən "Stomatologiyanın aktual problemləri" mövzusunda XXII beynəlxalq elmi-praktik konfrans dekabrın 10-da baş tutub.**

Konfransda Assosiasiyanın prezidenti, ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva açılış nitqi ilə çıxış edərək öncə tədbir iştirakçılarını salamlayıb. O, "Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz yurdumuzun cənnət guşəsi olan Qarabağı düşmən işğalından azad etdi. Bayrağımızı öz torpaqlarımızda ucaltdıq. Bu müharibədə qardaş Türkiyə daim yanımızda oldu" – deyərək, Azərbaycan Stomatoloji Assosiasiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə yubiley tədbirlərinin çox əlamətdar bir dövrdə keçirildiyini xatırladıb.

Üzümüzə gələn ildə isə bütün tədbirləri müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edəcəklərini söyləyən R.Əliyeva, rəhbəri olduğu qurumun tarixi inkişaf yolundan söhbət açıb. Bildirib ki, ölkəmiz ikinci dəfə öz müstəqilliyini qazandıqdan sonra böyük islahatlar aparıldı: "Ölkə rəhbərliyi Azərbaycanın müstəqil dövlət kimi bütün sahələrdə, o cümlədən səhiyyə sistemində dünya proseslərinə inteqrasiya siyasətinə dəstək verdi. Bu baxımdan, 1998-ci ildə yeni yaradılmış ASA dünya stomatoloqlarının aparıcı orqanı olan Ümumdünya Stomatoloqlar Birliyinə (FDİ) daimi üzv seçildi. Onu da qeyd etmək istərdim ki, keçmiş SSRİ dövlətləri arasında Rusiyadan sonra Ukrayna ilə birlikdə 1998-ci ildə 2-ci və 3-cü dövlət olaraq FDİ parlamentində qəbul olunduq. Eyni zamanda ASA FDİ-nin Avropa Regional Təşkilatının həqiqi və daimi üzvüdür. Assosiasiyamız həm də Müstəqil Dövlətlər Birliyinin və Türkiyə Diş Həkimləri Birliyinin rəhbərliyi altında olan "Qonşu ölkələr – The Neighbouring Countries Platforması"-nın üzvüdür".

R.Əliyevanın sözlərinə görə, ASA-nın fəaliyyət istiqamətlərindən biri də diş həkimləri və əhalı arasında sanitar-maarifləndirmə işinin aparılmasıdır: "Diş həkimlərinin professional bilik və bacarıqlarının artırılması da həmişə diqqət mərkəzindədir. Belə ki, 2000-ci ildən başlayaraq biz bir sıra regional və beynəlxalq seminar, simpozium, master-klaslar və konfranslar təşkil edirik. Bütövlükdə müasir stomatologiyanın problemlərinə həsr olunan bu tədbirlərin bir qismi "Davamlı təhsil" proqramı çərçivəsində həyata keçirilir.






Fəaliyyətimizin əhəmiyyətli mərhələlərindən biri də assosiasiyamızın dövri mətbuat orqanının yaradılmasıdır. "Qafqazın Stomatoloji Yenilikləri" adlı dərgimizin artıq 26-cı sayı işıq üzü görüb. Apardığımız işlərin hesabatı, qarşıda duran məqsəd və məramlarımız dərgidə öz əksini tapır".

ASA-nın uzun illərdir ki, dünyanın aparıcı şirkətləri ilə məktəblər arasında "Ağız boşluğuna qulluq" üzrə təhsil proqramını həyata keçirdiyini söyləyən qurumun rəhbəri, bu proqramın 15 ilə yaxın müddətdə Bakı, Sumqayıt, Gəncə, Zaqatala, Şirvan və Mingəçevir şəhərlərində reallaşdığını və ümumilikdə 500 mindən artıq uşağı əhatə etdiyini vurğulayıb.

Natiq XX əsrin sonundan bu günə qədər müasir tibbdə həyat keyfiyyəti anlayışının böyük önəm daşımasına və bu anlayışın stomatologiyada da çox mühüm olmasına diqqət çəkib: "Estetik baxımdan ağız sağlamlığının funksiyalarının yerinə yetirilməsi, gigiyenası, diş sıralarının vaxtında bərpası və ümumilikdə ağız sağlamlığının qorunması xüsusi önəm kəsb edir. Bu ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatı ilə Ümumdünya Stomatoloqlar Federasiyasının birgə keçirdiyi toplantıda qəbul olunan ağız sağlamlığı strategiyası sentyabrda Cenevrədə yenidən müzakirəyə çıxarılıb və FDİ-nin parlament iclasında qəbul olunub. Artıq bu strategiya 2030-cu ilə qədər bütün diş həkimləri üçün bir proqram kimi nəzərdə tutulur".

Çıxışının sonunda bugünkü tədbirin stomatologiyanın aktual problemi hesab edilən dişin sərt toxumalarının mineral balansının bərpasına həsr olunacağını bildirən R.Əliyeva sözü məruzəçilərə verib.

Türkiyədən professor Betül Kargül "Molar insizal hipomineralizayonunda (MIH) klinik yönetim", DRC Group şirkətinin (R.O.C.S.) elmi təmsilçisi Tatyana Kupes "Həkim-stomatoloqun təcrübəsində remineralizəedici terapiya", dosent Gülşən Zeynalova "Diş məcunlarının minanın remineralizasiya prosesinə təsiri" və dosent Ramidə Şadlinskaya "Böyük β-talassemiyalı uşaqlarda diş kariyesinin yayılmasının və intensivliyinin qiymətləndirilməsi" mövzusunda maraqlı məruzələrlə çıxış edibləр. Hər məruzədən sonra sual-cavab sessiyası olub və müzakirələr aparılıb.

# ATU TEC-in rəhbəri beynəlxalq konqresdə iştirak edib




ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, Ümumi cərrahiyyə kafedrasının əməkdaşı, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyası (AELCA) İctimai Birliyinin sədri, tibb elmləri doktoru Müşfiq Həsənov və nümayəndə heyəti Türkiyənin Antalya şəhərində Türk Qastroenterologiya Dərnəyinin təşkilatçılığı ilə keçirilən "39-cu Beynəlxalq Qastroenterologiya həftəsi və 10-cu Qastroenteroloji Cərrahiyyə Konqresi"ndə iştirak ediblər.

Müşfiq Həsənovun "Təbib" qəzetinə verdiyi məlumata görə, dünyanın 20-dən çox ölkəsindən 1500-dək iştirakçının qatıldığı beynəlxalq konqres dünya qastroenteroloqlarını, cərrahlarını, universitet və dərnəklərini bir araya gətirərək, müasir texnologiyalar, müayinə və müalicə üsullarını təhlil edib. Konqresdə simulyasiyalara əsaslanan təlim metodlarının tibb tədrisindəki əhəmiyyəti, canlı heyvanlar üzərində aparılan endoskopik əməliyyatlar simulyasiyalar vasitəsilə çatdırılıb. Eyni zamanda "Peritonitlə ağırlaşmış pankreonekroz zamani sekeltiv müalicənin tədqiqatının effektivliyi" mövzusunda arasdırma konqresin proqramına daxil edilib.

Konqres gələcəkdə ATU-da canlı heyvanlar üzərində aparılan əməliyyatların simulyasiyalarla keçirilməsi, bu məqsədlə ənənəvi və onlayn kursların təşkili, tələbə və rezidentlərin bu xətt üzrə xaricdə kurslara göndərilməsi, həmçinin bu sahədə qardaş ölkənin tibb mütəxəssisləri ilə təcrübələrin bölüşdürülməsi, universitetlər və cəmiyyətlər arasında koordinasiyanın qurulması, tibbin aktual sahələrinə dair elmi araşdırmaların tibb təhsilinə inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Birinci Beynəlxalq Tibbi Forum çərçivəsində AELCA ilə Türk Qastroenterologiya Dərnəyi arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.

# Tədris Cərrahiyyə Klinikasında kardioloji kurs keçirilib

**Azərbaycan Kardiologiya Cəmiyyətinin (AKC) XI Milli Konqresi çərçivəsində Tədris Cərrahiyyə Klinikasında təşkil olunan təlim exokardioqrafiya üzrə təməl kursdan ibarət olub.**



Klinikanın kardioloqu, AKC-nin sədr müavini Yasmin Rüstəmovanın verdiyi məlumata görə, kurs zamanı müxtəlif klinik hallarda çəkilmiş EKQ-lərin və mürəkkəb EKQ-lərin interpretasiyası, EKQ-də aritmiyaların dəqiq müəyyən edilməsi metodları tədris edilib. Bakı Sağlamlıq Mərkəzində keçirilən kursda, həmçinin işemiya, infarkt və digər hallarda EKQ dəyişikliklərinin təyini iştiqamətində biliklər paylaşılıb.

Bundan əlavə, konqres çərçivəsində Mərkəzi Klinikada kardioloqlar üçün anatomiya kursu da təşkil olunub. Hər iki təlim zamanı Azərbaycanın aparıcı kardioloqları öz təcrübələrini bölüşüb, nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar da tədris edilib.

Qeyd edək ki, Azərbaycan Kardiologiya Cəmiyyətinin XI Milli Konqresi 10-11 dekabr tarixlərində keçirilib. Tədbir zamanı Avropa Kardiologiya Cəmiyyəti və Dünya Kardiologiya Cəmiyyəti ilə birgə sessiyalar təşkil olunub.

**Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti Püstə Orucovanın müəllifi olduğu layihə Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (JİCA/YBƏA) qrantına layiq görülüb.**

# Əməkdaşımızın layihəsi beynəlxalq təşkilatın qrantına layiq görülüb




P.Orucovanın "Yenidoğulmuşlarda müxtəlif hemodinamik parametrlərin davamlı ölçülməsi üçün portativ qeyri-invaziv kardiometrin alınması" layihəsi YBƏA Azərbaycan Məzunları Assosiasiyasının fəaliyyəti çərçivəsində 2022-ci il üçün "Kiçik qrant layihələri" proqramı üzrə qalib gəlib.

Qeyd edək ki, bu cihazın yaradılmasında əsas məqsəd neonatal intensiv terapiya şöbəsində müalicə alan vaxtında və vaxtından əvvəl doğulanlarda kardiak funksiyalara davamlı nəzarətdir. Exokardioqrafiya üsulu ilə də kardiak funksiyalara nəzarət etmək mümkündür. Lakin ağır vəziyyətdə respirator terapiya alan körpələrdə tez-tez baş verən kardiak pozulmaların davamlı monitorinqi exokardioqrafiya üsulu ilə daha çətindir. Ürəyin vurğu həcmində baş verən dəyişikliklər beyin-qan dövranının pozulmasına, işemik sahələrin yaranmasına, baş beyin toxumasına və ya mədəcik daxilinə qansızmaların baş verməsinə səbəb olur.

Ölkəmizdə 2015-ci ildən yeni diridoğulma meyarlarına keçilməklə əlaqədar, 22 həftədən yuxarı hestasiya yaşında doğulan körpələrin də müayinə və müalicəsi aparılmaqdadır. Bu körpələrdə isə yetməməzlik nəticəsində hemodinamika pozulmaları və baş beyin zədələnmələri qeyd edilməkdədir. Nəticədə bu körpələrin gələcək sinir-psixi sağlamlığı böyük təhlükə qarşısında qalır. Bu baxımdan, baş beyin zədələnmələrinin vaxtında qarşısının alınması neonatologiyanın, pediatriyanın, ümumilikdə tibbin aktual problemidir. İstənilən kiçik bir müdaxilə vaxtından əvvəl doğulan körpənin zədələnmə riskini azalda bilər. Ona görə də neonatal praktikada ürəyin çıxış həcminin monitorinqi vacib amilə çevrilir.

Bu monitor cihazının dörd sensor qəbuledicisi bədənin sol tərəfində yerləşdirilir. Cihaz ürəyin vurğu həcmini və bir sıra hemodinamik göstəriciləri ölçə bilir.

# Rezidentlər üçün növbəti seminar keçirilib

**Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün növbəti ənənəvi seminar keçirilib. Seminarın bu dəfəki mövzusu “Xronik irinli orta otit və ağırlaşmaları” olub. TCK-nın rezidentlər üzrə məsul şəxs, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov mövzu barədə iştirakçıları məlumatlandırıb.**



Bundan sonra Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının dosenti Ayaz Qasımov qeyd olunan mühazirəni təqdim edib.

Məruzəçi çıxışında xronik irinli otitlərin etiologiyasından, patogenezindən, növlərindən, müalicə prinsiplərindən və baş verə biləcək yerli və ümumi ağırlaşmalardan bəhs edib, onun diaqnostikasının vaxtında və doğru aparılmasının vacibliyini vurğulayıb. Xəstəliyin simptom və əlamətlərindən danışan A.Qasımov bildirib ki, qulaqdan irinli və ya şəffaf, yapışqanşəkilli axıntının olması onun göstəricisidir: “Təbil pərdəsində dəlik qeyd olunur və orta qulağın selikli qişası şişkin və ifrazatlıdır. Təbil pərdəsinin yuxarı hissəsinin (pars flaccida) dəliyi xolesteatomanın demək olar ki, daimi əlamətidir. Təbil pərdəsinin mərkəzi hissəsində (pars tensa) dəlik xolesteatomaya meyllik yaradır və tez-tez orta qulaqda keratinləşmiş kütlə müşahidə edilir”.

Məruzəçi xroniki orta otitin konservativ müalicəsi haqda danışdıqdan sonra Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının assistenti Sara Ağalar seminarın işini diskussiya formasında davam etdirərək, məruzəyə dair sualları cavablandırıb.

# "Hilal" yardım cəmiyyətinin növbəti aksiyası baş tutub



**Dekabrın 8-də Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Hilal" yardım cəmiyyətinin növbəti müayinə xarakterli aksiyası baş tutub.**

Kəmalə Ağazadənin rəhbərlik etdiyi uşaq sığınacağında keçirilən görüş zamanı sığınacaq sakinləri pediatr və fizioterapevt tərəfindən müayinə olunub. Həmçinin sığınacağa THİK tərəfindən dərman və ərzaq yardımı göstərilib. Görüş Lamiyə Səhratzadənin təşkilatçılığı, Rəhimə Nəzərova və Hazal Doğanın iştirakı ilə təşkil olunub.

Müayinədə həkim-pediatr Qoşqar İsmayılov, rezidentlər Səbinə Hacıyeva, Leyla Hüseynli, həmçinin fizioterapevt Mücahit İbrahimoğlu iştirak ediblər.

# Tədris Cərrahiyyə Klinikasında elmi seminar təşkil olunub

**Tədris Cərrahiyyə Klinikasında "Cinsi yolla yoluxan infeksiyaların diaqnostikasında təməl prinsiplər” mövzusunda elmi seminar keçirilib. Məruzəçi TCK-nın klinik-mikrobiologiya mütəxəssisi, Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun doktorantı Leyla Həşimova olub.**



O, ÜST-ün məlumatına əsasən, hər gün 1 milyondan çox insanın bu infeksiyalardan birinə yoluxduğunu qeyd edərək diaqnostikasının vacibliyindən söz açıb. Həkim genital sistemin normal florasını bilməyin önəmini vurğulayaraq yaşa, Ph-a və hormon səviyyəsinə uyğun olaraq necə dəyişdiyini izah edib. Bundan sonra axtarılan patogenə uyğun olaraq nümunələrin alınması qaydasından danışıb, infeksiyaların törədicilərinin patogenezi, risk faktorları, klinikası və diaqnostikası haqda geniş məlumat verib.

Klinikanın Mama-ginekologiya və Laboratoriya şöbələrinin, Klinik Tibbi Mərkəzin, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin həkim və həkim-rezidentlərinin iştirak etdiyi seminar maraqlı diskussiya ilə öz işini başa çatdırıb.

# Diş həkimləri İzmirdə toplanıb



**ATU-nun Uşaq stomatologiyası kafedrasının assistenti Sevinc Nağıyeva İzmir Diş Həkimləri Birliyinin Elmi Konqresində iştirak edib. Əvvəlki illərdə konqresin Elmi Komitəsinin üzvü olan S.Nağıyeva bu il məruzəçi kimi dəvət alıb.**

S.Nağıyevanın verdiyi məlumata görə, 29-cu Beynəlxalq Diş Həkimləri Konqresində 1100 həkim və 250 tələbə bir araya gəlib. Türkiyənin müxtəlif ali təhsil müəssisələrindən və bir sıra xarici ölkələrdən tədbirə qatılan 100-ə yaxın elm adamının məruzələri müasir stomatologiyanın bütün sahələrini əhatə edib: “Mən “Tip 1 diabetli uşaqlarda diş əti xəstəliklərinin diaqnozu və müalicəsi” mövzusunda çıxışımda diqqəti bu xəstəliyin həzm sisteminin bir hissəsi olan ağız boşluğunda da fəsadlar törədərək dişlərin vaxtsız itirilməsinə səbəb olduğuna yönəltdim”.

Əməkdaşımız tədbir zamanı türkiyəli mütəxəssislərlə fikir mübadiləsi aparıb, ATU-dakı tədris prosesi haqda məlumat verib. Konqres çərçivəsində təşkil olunmuş tibbi və stomatoloji materialların ənənəvi satış sərgisindən isə tədris zamanı gərəkli ola biləcək bir çox kitablar və jurnallar əldə edib.

**Azərbaycanın ərazisi dünyanın endemik zonalarından hesab olunur. Bu səbəbdən də ölkəmizdə insanlar arasında qalxanabənzər vəzlə bağlı, hormonal mənşəli sonsuzluq və s. xəstəliklərə, eləcə də uşaqlarda boy artımı, böyümə və inkişaf geriliyi kimi problemlərə tez-tez rast gəlinir. Bəs yod çatışmazlığının səbəb olduğu bu cür xəstəliklərin qarşısının alınması üçün hansı profilaktik tədbirlər görülür?**

# Duzun yodlaşdırılması niyə vacibdir?

## Tədris Terapevtik Klinikanın şöbə müdiri yod çatışmazlığının fəsadları haqda məlumat verir

Bizi maraqlandıran suallarla cavab almaq üçün Azərbaycan Tibb Universitetinin II Daxili xəstəliklər kafedrasının dosenti, Tədris Terapevtik Klinikanın Endokrinologiya şöbəsinin müdiri Səbinə Məşədiyevaya müraciət etdik. Onun “Təbib” qəzetinə verdiyi açıqlamaya görə, yod çatışmazlığı dünyada ciddi problemlərdən biri hesab olunur: “Ölkəmizdə də yod çatışmazlığı problemi mövcuddur. Problemin aktuallığı nəzərə alınaraq, dövlətimiz tərəfindən 2001-ci il dekabrın 27-də “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu və sonralar müvafiq Dövlət proqramları qəbul edilib. Bununla kifayətlənilməyib, daha təsirli tədbirlər həyata keçirilib. Belə ki, 2003-cü ilin yanvarından etibarən ölkəmizdə yodlaşdırılmamış duzun qida və yem məqsədi ilə istehsalı, satışı və idxalı mövcud qanunvericiliklə qadağan olunub”.



Şöbə müdiri bildirib ki, hələ sovetlər dövründə də endemik zonalarda yodlaşdırılmış un və duz paylanılırmış: “Amma ölkəmiz 1991-ci ildə müstəqillik qazandıqdan sonra 2001-ci ildə qanun qüvvəyə minənədək bu məsələdə bir boşluq yarandı. Problem bir növ nəzarətsiz qaldı. 1990-cı illərin sonlarında ölkəmizdə suyun, havanın müayinəsini aparmaq üçün Yunanıstandan ekspertlər gəlmişdilər. Nəticələrdən məlum olmuşdu ki, Azərbaycanın böyük hissəsi endemik zonaya aiddir. Ağır endemik zonalar Şəki, Zaqatala, Balakən, Qax, Qəbələ, Quba, Qusar, Ordubad, Daşkəsən, Gədəbəy və ölkəmizin cənub bölgəsi hesab olunur”.

Dosent, rəhbərlik etdiyi şöbəyə müraciət edən xəstələrdən və daha çox rast gələn xəstəliklərdən də söhbət açıb: “2000-ci illərdən etibarən profilaktik tədbirlər görüldüyündən, hazırda əvvəllər geniş yayılmış düyünlü, 3, 4, 5-ci dərəcəli urlara az rast gəlinir. Şöbəmizə endokrin, şəkərli diabet, hipotireoz, toksiki ur xəstələri müraciət edir.

Yod çatışmazlığı zamanı insanlarda qalxanabənzər vəzin funksiyası pozula bilər. Anadangəlmə və ya uşaqlıq dövründə rast gəlinən qalxanabənzər vəzin funksiyasının azalması hipotireoza gətirib çıxarır. Bu zaman orqanizmdə maddələr mübadiləsi pozulur, boyatma ləngiyir. Eyni zamanda uşaqlarda əmgək gec bitişir, dişlər gec çıxır, psixi problemlər olur. Bu cür qadınlardan dünyaya gələn uşaqlarda psixi və sinir pozğunluqları, əqli və fiziki inkişafdan geri qalma müşahidə olunur”.

Söhbətimizin sonunda S.Məşədiyeva bu cür xəstəliklərlə üzləşməmək üçün gün ərzində böyüklərin 100-150, hamilə qadınların 200-250, 6 yaşadək uşaqların 50, 6-12 yaş uşaqların 80 mikroqram yod qəbul etməli olduqlarını vurğulayıb. Amma autoimmun troid xəstələrə yoddan istifadə etməməyi məsləhət görüb. Çünki bu xəstəlik zamanı qalxanabənzər vəzdə anticisimlərin sayı artır və hipotireoz təhlükəsi yaranır.

**Qabil ABDULLAYEV**

# Tanınmış mütəxəssis xroniki ürək çatışmazlığından danışıb

**Noyabrın 30-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün növbəti ənənəvi seminar keçirilib.**

Klinikanın rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov ənənəvi seminarların tibbin bütün sahələrini əhatə etdiyini, bu dəfə “Xroniki ürək çatışmazlığı” mövzusunda mühazirənin dinləniləcəyini diqqətə çatdırıb. O, tanınmış mütəxəssis, təcrübəli həkim Yasmin Rüstəmovanın bu sahəyə dair maraqlı fikirlərindən rezidentlərin kifayət qədər faydalanacağına əminliyini bildirib. Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova daim rezidentlərin yanında olan, eyni zamanda kolleqalarından, xəstələrindən köməyini əsirgəməyən Yasmin xanıma uğurlar arzulayıb və rezidentləri bu fürsətdən yararlanmağa çağırıb.



Bundan sonra mühazirəsini slaydlarla təqdim edən ATU-nun I Daxili xəstəliklər kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının həkim-kardioloqu Yasmin Rüstəmova ilk növbədə niyə məhz adıçəkilən mövzunu seçməsinə aydınlıq gətirib. O həm Amerika, həm də Avropa kardioloqlar cəmiyyətlərinin təsvirlərindən müqayisəli sitat gətirərək qeyd edib ki, ürək çatışmazlığı simptom və hər hansı əlamətlər olan struktur və ya funksional pozulmalar nəticəsində yaranan mədəciklərin doldurulması və ya qanın boşaldılmasının pozulması ilə əlaqədar kompleks bir klinik sindromdur. Əvvəllər düşünülürdü ki, xroniki ürək çatışmazlığı birbaşa ürəklə əlaqəli bir xəstəlikdir. Əslində isə bu sindrom bir neçə simptomun, hətta bir neçə orqanın xəstəliyi nəticəsində əmələ gəlir. Həkim diqqəti ürək çatışmazlığının etiologiyasına yönəldərək ürək funksiyasının zəifləməsinin əsas səbəblərindən danışıb.

Məruzədə ürək çatışmazlığının muasir təsnifatına, müasir diaqnostik üsullarına və müalicə prinsiplərinə geniş yer ayrılıb. Həmçinin hazırda ən çox rast gəlinən ürək-damar problemlərinə, xroniki ürək çatışmazlığına səbəb olan digər faktorlara toxunulub.

Ürək-damar sisteminin diaqnostikası üzrə İtaliyada master dərəcəsi alaraq 2012-ci ildən etibarən Azərbaycanda ürək maqnit rezonans tomoqrafiyası üzrə ilk mütəxəssis kimi fəaliyyət göstərən Yasmin Rüstəmova bu sahəyə dair təcrübəsini də rezidentlərlə bölüşüb.

# Əməkdaşlarımızın Özbəkistanda çıxışları maraqla qarşılanıb

**Bu günlərdə Özbəkistanın paytaxtı Daşkənddə iki beynəlxalq konfrans keçirilib. Hepotoloqların təşkil etdiyi bu konfranslarda Yoluxucu xəstəliklər kafedrasının dosentləri - tibb elmləri doktoru Sədrəddin Atakişizadə və Könül Cəfərova da iştirak edib.**







S.Atakişizadə “Virus hepatitlərinin müasir müalicə taktikası” və “Bəzi xəstəxanadaxili infeksiyaların törədicilərinə genişspektrli antibiotiklərə həssaslığı”, K.Cəfərova isə “Meningokok infeksiyasının müasir müalicə prinsipləri” mövzularında çıxış ediblər. Onlara tədbirdə iştiraklarına və çıxışlarına görə sertifikatlar təqdim olunub.

ABŞ, Rusiya, Avropanın bir sıra ölkələrindən, MDB məkanından çoxsaylı infeksionist, mikrobioloq, hepatoloq, parazitoloq, virusoloqların iştirak etdiyi konfransda universitetimizin əməkdaşlarının çıxışı və toxunduqları problemlər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Konfransdan sonra təşkil olunan musiqili proqramda müxtəlif xalqların musiqiləri ilə yanaşı, Azərbaycan musiqisi də səsləndirilib. Qonaqlar milli musiqimizin sədaları altında rəqs ediblər. ATU-nun əməkdaşları Özbəkistanın gəzməli-görməli yerləri ilə tanış olmaqla yanaşı, Teymurləng və oğlu Uluğbəyin qəbirlərini də ziyarət ediblər.

Əhməd Cavad - 130

# Xalqın qəlbində əbədi yaşayan istiqlal şairi



**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın 130 illiyi tamam olur. Onun 130 illiyinin keçirilməsi ilə əlaqədar ölkə başçısı 20 aprel 2022-ci il tarixdə sərəncam imzalayıb.**

Azərbaycanın görkəmli istiqlal şairi, dövrünün öncül ictimai-siyasi fəalı Əhməd Cavad 5 may 1892-ci ildə Şəmkir rayonunun Aşağı Seyfəli kəndində dünyaya göz açıb. Orta təhsil aldıqdan sonra Azərbaycan Pedaqoji Universitetinə daxil olub və ali məktəbi əla qiymətlərlə bitirib. O, şair, tərcüməçi, redaktor və digər fəaliyyətləri ilə tanınıb.

Şair ömrünün ən bəxtəvər məqamlarını Azərbaycan Demokratik Respublikası dövründə yaşayıb. Bu duyğularını "Can Azərbaycan" şeirində böyük səmimiyyətlə ifadə edib:

*Torpağına can demişəm,*
*Suyuna mərcan demişəm,*
*Canımı qurban demişəm.*

1918-ci ilin mayında müstəqillik qazanmış Azərbaycan dövlətinin himnini yazmaq xoşbəxtliyi də Əhməd Cavada nəsib olub. Həmin himn bu gün də müstəqil dövlətimizin əsas atributlarındandır:

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə,*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən, şanlı Vətən!*
*Azərbaycan, Azərbaycan!*

Azərbaycan ədəbi-bədii fikir tarixində Əhməd Cavad istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün varlığı ilə bağlı olduğu doğma xalqının müstəqillik ideyalarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğurulub:

*Eşqimin nə imiş bilməm günahı,*
*Yıxıldı könlümün istinadgahı.*
*Nəsibim olsa da dünyanın ahı,*
*Bir gün göz yaşımı siləcəyəm mən.*

Ötən əsrin yetmişinci illərində Əhməd Cavadın əlli il öncə yazdığı bu qəbildən hicran motivli "məhəbbət" şeirlərini oxuyarkən xeyli təəccüblənmişdim. Onun qibtə olunası ailəsi: böyük məhəbbətlə sevərək vüsalına qovuşduğu sevgili Şükriyyəsi, dörd gözəl övladı (3 oğlan, 1 qız) ola-ola, şairi belə odlara qalayan bu eşq haradan çıxdı, görəsən? "Ədəbiyyat tarixi" kitablarında da Ə.Cavadın 1920-1924-cü ildə yazdığı həmin şeirlər "xırda burjua əhvalı-ruhiyyəli", "mürtəce romantizm meylli" deyə tənqid edildiyi üçün münasibətim xeyli tündləşmişdı.

Doxsanıncı illərdə Əhməd Cavad haqqında ədəbi portret, oçerk yazmaq bir illik iş planıma salındı. Onun bütün yaradıcılığını və haqqında olan elmi, tənqidi materialları öyrənməli və araşdırmalı oldum. Tamamilə fərqli bir mənzərə ilə qarşılaşdım. Sən demə, bu məhəbbət şeirlərinin ünvanı başqa imiş.

Vətənin rus imperializminin əsarətində olması ağrıları artıq ilk şeirlərindən onun gələcək yaradıcılıq yolunun ideya-estetik məramnaməsini açıqlayırdı. Vətənin "yalçın qayalarının şahin yuvası", "izsiz ormanların ərlər obası" olduğu keçmiş günləri arzulayan şair "indi günahımız çox böyükdür" deyərək, "Qafqazlısan, sev Qafqazı" şeirində köləlik boyunduruğunda qalmağa, itaətkarlığa qarşı üsyan edirdi:

*Yox, müqəddəs göy üzünə*
*səslərimiz gedəmməz?*
*Namussuzluq pək alçaqdır,*
*bizi haqq da dinləməz,*
*Qorxaq, alçaq bır millətə*
*Tanrı da yol göstərməz.*

1917-cı ildəki rus burjua və proletar inqilablarından sonra Azərbaycanın milli istiqlalı ideyasının tezliklə reallaşa biləcəyi ehtimalı şairin yaradıcılığına böyük ruh yüksəkliyi, nikbinlik gətirdi. Təəssüf ki, bu nikbinlik 1920-ci ilin aprelində vətənin yenidən istilası səbəbindən dərin bir kədərə, bədbinliyə çevrildi.

Nəhayət, Azərbaycan ikinci dəfə müstəqilliyə qovuşandan sonra bu şeirlərin də ideya-məzmunu barədə açıq danışmaq şəraiti yarandı.

Şairin mənəvi dünyasına hakim olan sarsıntının, əzabın səbəbini dərk edəndən sonra onun "Göygöl", "Kür", "Səsli qız" kimi əsərlərini də obyektiv dəyərləndirmək olur. "Göygöl" şeirindəki "Qəlbində yer verdin ulduza, aya" misrasına görə bəhanə edib şairi 1925-ci ildə həbs də etmişdilər. "Kür" poemasında şair Kürə təbiətin cansız bir lövhəsi kimi baxmır, həm də onda taleyini bağladığı vətəninin bir parçasını görürdü. Əsərin sonunda zahirən öz xeyri üçün təbiətin, Kürün istismarına qalxan insanın qələbə notlarından çox, hazırda rusun təcavüzünə məruz qalan bu vətən parçasına qayğı, munislik ovqatı səslənir. Və bu misralar xalqın ruhuna doğma olduğu üçün dərhal zərb-məsələ çevrilir, dillər əzbəri olur:

*Əyil Kürüm, əyil keç,*
*Dövran sənin deyil, keç...*

Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən Əhməd Cavad haqsız olaraq həbs edilib, işgəncələrə məruz qalıb, 12 oktyabr 1937-ci ildə - 45 yaşında antisovet fəaliyyətində ittiham olunaraq güllələnib.

Onun "xalq düşməni" kimi damğalanmasının səbəbi xalqının ən sadiq dostu, vətəninin ən etibarlı və qiymətli insanlarından biri olması idi.

Əhməd Cavad adı bizə ilk növbədə ruhumuzun qidası olan, dahi şəxsiyyət Üzeyir Hacıbəyli ilə birgə ərsəyə gətirdiyi Dövlət Himnimizi xatırladır.

Şair vaxtsız ölümə məhkum edilsə də, vətəninin qoynunda, xalqının qəlbində əbədi məskən salıb.

**Elbrus Sadıqov,**
***İctimai fənlər kafedrasının dosenti***

# Səhiyyə iqtisadiyyatının tədrisinin əhəmiyyəti

**İnsanın sahib olduğu ən önəmli nemətlərdən biri sağlamlıqdır. Sağlamlığın təminatı isə səhiyyə sisteminin inkişafından və tibbi xidmətlərin keyfiyyətli təminatından asılıdır. Bəs səhiyyə iqtisadiyyatının inkişafı və tibbi xidmətlərə əlçatanlığın təmin olunması üçün hansı məqamlara diqqət yetirilməlidir? Bu məsələ ilə bağlı Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının baş müəllimi, i.ü.f.d. Nigar Ələkbərova fikirlərini açıqlayıb.**



N.Ələkbərova qeyd edir ki, əhalinin sağlamlığının qayğısına qalmaq dövlətin əsas funksiyalarından biridir: "Dövlətin strateji vəzifələrinin sırasına həm də əhaliyə keyfiyyətli və əlverişli tibbi xidmətin göstərilməsi məqsədilə səhiyyə sisteminin zəruri maliyyə resursları ilə təmin olunması daxildir. Lakin bu sahədə bütün problemləri yalnız dövlət büdcəsinin hesabına həll etmək olarmı? Nəzərə almaq lazımdır ki, dövlət sosial-iqtisadi yönümlü bir çox məsələləri həll edir. Səhiyyə iqtisadiyyatı da tibb sahəsindəki problemlərin həllinin təmin olunmasına çalışır".

Mütəxəssis bildirir ki, dünya üzrə səhiyyə sistemi maliyyələşmə formasından asılı olaraq üç əsas model üzrə fəaliyyət göstərir: büdcə, sığorta və özəl. Əksər ölkələr "qarışıq model"dən istifadə edirlər. Bu format əhalinin bütün təbəqələrinə xidmətlərin göstərilməsini nəzərdə tutur. Bu məqsədlə lazımi tibbi avadanlıq əldə olunur, müxtəlif ixtisaslar üzrə həkim kadrları yetişdirilir və əhalinin tibbi xidmətlərə əlçatanlığı təmin edilir.

ATU-nun müəlliminin sözlərinə görə, bu sahədəki iqtisadi səmərəlilik dövlətin siyasətindən birbaşa asılıdır. Bu kontekstdən yanaşdıqda, xəstələrin tibbi xidmətlərin keyfiyyəti və sayı ilə bağlı gözləntiləri fərqli olur: "Bu da bəzən səhiyyə iqtisadiyyatının qarısında çətinliklər yaradır. Daha geniş mənada səhiyyə iqtisadiyyatının qarşısında duran vəzifələr maliyyələşdirmə mənbələri, xidmətlərin keyfiyyəti və qiymətlərinin uyğunluğu, tibbi xidmətlərə tələbat və bu xidmətlərin göstərilməsi üçün resurs bazasından ibarətdir".

Ümumilikdə səhiyyə sisteminin səmərəliliyinin artırılması məqsədilə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin doğum və ölüm göstəricilərinə, əhalinin rifah halına, xidmətlərdən məmnunluq səviyyəsinə təsir dərəcəsi kimi müxtəlif göstəricilər nəzərə alınır. Burada əhalinin tibbi xidmətlərə sosial baxımdan əlçatanlığı ayrıca söhbət mövzusudur. Çünki dövlət büdcəsindən ayrılan məhdud maliyyə resursları əhalinin bütün xidmətlərə ehtiyacını tam ödəyə bilmir.

Digər tərəfdən, çoxsaylı tibb müəssisələrinin olması da tibbi xidmətlərin kifayət qədər keyfiyyətli və əhali üçün əlçatan olmasına dəlalət etmir. Səhiyyə iqtisadiyyatı bu sahədə bütün qurumların effektiv fəaliyyətinin təminatı üçün mexanizmlər işləyib hazırlayır.

Dövlət büdcəsi modelindən büdcə-sığorta sisteminə keçid kadrlar sisteminə yenidən baxılmasını, xüsusən də səhiyyə iqtisadiyyatının əsaslarını mənimsəməyi tələb edir. Çünki tibb müəssisəsinin statusunun dəyişməsi onların bütün təsərrüfat əlaqələrinin və münasibətlərinin xarakterinin dəyişməsinə səbəb olur.

Mütəxəssisin qeydlərinə görə, səhiyyə iqtisadiyyatı qarşısında qoyulan problemləri həll etmək üçün məsələyə kompleks yanaşma lazımdır. Çünki təkcə özəl tibbin mövcudluğu tibbi xidmətlərin keyfiyyətli təminatı ilə bağlı hüquqi aspektləri hələ də tam həll edə bilmir.

Səhiyyə iqtisadiyyatının əsasları, mövcud tibbi modellərin işlək mexanizmləri Azərbaycan Tibb Universitetində də tədris olunur. Çünki hansı sahədə ixtisaslaşmasından asılı olmadan, gələcəyin həkimləri mütləq iqtisadi qanunlar haqqında biliklərə sahib olmalıdırlar.

N.Ələkbərovanın tədris etdiyi "səhiyyə iqtisadiyyatı" fənni də bu məsələləri öyrədir. Çünki müasir bazar münasibətləri şəraitində həkimlər də hansısa mənada tibbi xidmətlərin satıcıları sayılırlar və onlar xəstələrin müayinə-müalicəsi üçün rasional sxemlər seçməli olurlar.

**Noyabrın 28-də Azərbaycan Tibb Universitetində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Miqrasiya Sahəsinin İnkişafı" İctimai Birliyinin "Narkomaniya və zərərli vərdişlərə qarşı mübarizəyə dair maarifləndirmə tədbirləri" layihəsi çərçivəsində tədbir keçirilib.**

# Narkomaniyaya qarşı maarifləndirmə tədbiri keçirilib



Layihə rəhbəri Vidadi Fətullayev tələbələr qarşısında çıxış edərək gənc nəslin sağlamlığının qorunması sahəsində ölkəmizdə həyata keçirilən islahatlardan, dövlət qurumlarının bu sahədə apardığı mübarizədən, narkotik vasitələr və zərərli vərdişlərin insan həyatı və cəmiyyətimiz üçün fəsadlarından danışıb, gənclərimizi zərərli vərdişlərdən uzaq durmağa çağırıb.

Sonra Bakı Şəhər Narkoloji Mərkəzin klinik-psixoloqu Günay Babayeva çıxış edib. Mütəxəssis narkotik və psixotrop maddələr, onların səbəb olduğu xəstəliklər barədə tədbir iştirakçılarına ətraflı məlumatlar verib. "Ağ ölüm"ün əsasən gənclər arasında yayıldığını bildirib, onların hansı mühitdə, necə narkotik vasitələrin təsiri altına düşməsi, cəmiyyətdə özlərini necə aparmaları, davranışları və özlərini bu bəladan necə qorumalarından danışıb.

Tədbir iştirakçılarına maarifləndirici bukletlər və çap materialları da paylanılıb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedralanın professoru:**

- Urologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- Nevrologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer
- Hərbi cərrahiyyə kafedrası (HTF) - 1 yer

**Kafedraların assistentləri:**

- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Tibbi və bioloji fizika kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın müəllimi:**

- Xarici dillər kafedrası - 1 yer

**Elmi Tədqiqat Mərkəzi:**

- Eksperimental endokrinologiya şöbəsi (kiçik elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək-dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin video-çəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Etibarsız sayılır

Shweik Hazem Riad oğlu (qrup 317İ5); Mohamad Alhussain Alhafez Essamldin oğlunun (qrup 418İ3b) tələbə bileti, Shweik Hazem Riad oğlunun (qrup 317İ5) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

# Həkim-psixiatr tələbə auditoriyasında

**Dekabrın 6-da ATU-nun Tədris İdman Kompleksində "Təbib" idman klubunun təşkilatçılığı ilə keçirilən seminar tələbələrin sevimlisi, psixiatr dr. Ramil Hüseynzadə haqqında qısa tanıtımla başlayıb. Bildirilib ki, R.Hüseynzadə 2011-ci ildə 695 balla Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə qəbul olunub və 2017-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib.**



O, rezidentura təhsilini 2017-2019-cu illərdə 2 saylı Klinik Psixiatriya Xəstəxanasında alıb. 2019-cu ildə isə Türkiyənin 19 Mayıs Universitetində uşaq və yeniyetmə psixiatriyası üzrə təcrübə keçib. Rezidentura təhsilindən sonra dövlət təyinatı ilə Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının 9 saylı köməkçi stansiyasında çalışıb. Hazırda "Nəfəs" Psixi Sağlamlıq Akademiyasında həkim-psixiatr kimi fəaliyyət göstərir.

Bundan sonra həm haqqında səslənən təqdimata, həm də tələbələrlə görüş üçün yaradılan şəraitə görə tədbirin təşkilatçılarına təşəkkürünü bildirən dr. Ramil Hüseynzadə "Müasir dövrdə tələbələrin psixologiyası" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, tələbələr təhsil müddətində bir sıra kiçik, lakin əhəmiyyətli psixoloji problemlərlə qarşılaşırlar. Bu problemlər içərisində diqqət pozuntusu, sosial fobiya və özünüifadə çətinliyi, sosial media asılılığı, həmçinin tələbələrin gələcək qayğıları fonunda təşviş pozuntuları daha çox nəzərə çarpır.

Mütəxəssis mühazirəsində insanın psixologiyasına mənfi təsir göstərən başqa amillərdən də danışıb. Onun sözlərinə görə, əsas problemlərdən biri təşviş hissi, həyəcan qorxusu keçirən hansısa şəxsin özünü və ətrafındakıları düzgün dəyərləndirə bilməməsidir. Belə olduqda, həmin şəxs özünü əskik, ətrafını isə təhlükəli görür.

Bəzən insanları sosial qayğıların, maddiyyatın, gələcəklə bağlı narahatlığın və özünəgüvənsizliyin "sındırdığını" deyən həkim-psixiatr, problemin həlli yollarının daha çox fərdin özündən asılı olduğunu vurğulayıb. Qeyd edib ki, insan ilk növbədə özünü doğru dəyərləndirməyi bacarmalıdır.

Auditoriya ilə səmimi ünsiyyət yaradan dr. R.Hüseynzadə sonda tələbələrin mövzuya dair suallarını cavablandırıb. Bəzi tələbələr şəxsən özlərinə aid problemləri də rahatlıqla həkim-psixiatrla bölüşüblər.

Tədbirin sonunda "Təbib" idman klubu tərəfindən hazırlanan xüsusi hədiyyə Ramil Hüseynzadəyə təqdim olunub.

# Tələbələrə natiqlik bacarığı üzrə təlim keçirilib

**Dekabrın 5-də Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə məşhur natiqlik və ünsiyyət bacarıqları təlimçisi, ÜTÜ QRUP MMC rəhbəri Zaur Cahangirov tərəfindən universitetimizdə "Necə yaxşı danışaq?" mövzusunda seminar keçirilib.**



Tədbirin açılışını edən I Müalicə-profilaktika fakültəsinin dekan müavini Zəhra Həsənli yaradılan imkana görə THİK-in sədri Qoşqar İsmayılova və dəvəti qəbul etdiyi üçün Zaur Cahangirova təşəkkürlərini bildirib.

Daha sonra Z.Cahangirov tələbələrlə müzakirəli olaraq "Necə yaxşı danışaq?" mövzusunda çıxış edib. Tədbirin sonunda isə tələbələrlə bir oyun keçirib və qalib gələnləri özünün müəllifi olduğu "Düşünmək adlı dünya" kitabı ilə mükafatlandırıb.

Tədbir tələbələrin böyük marağına səbəb olub.

ATU THİK bütün tələbələri sosial-ictimai işlərdə aktiv iştirak etməyə çağırır.

### Allah rəhmət eləsin!

İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev Məhkəmə təbabəti kafedrasının assistenti Şahrud Əhmədova anası

**Rahilə Hacıyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının kollektivi kafedranın tədris işləri üzrə müdir müavini, dosent Gülnarə Kərimzadəyə anası

**Flora xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın əməkdaşı, tibb elmləri doktoru Hüseynağa Qurbanova bacısı

**Flora xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nevrologiya kafedrasının əməkdaşları kafedranın assistenti Sona Əliyevaya qaynatası

**professor Nadir Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nevrologiya kafedrasının əməkdaşları psixiatriya kafedrasının professoru Zəfər Əliyevə atası

**professor Nadir Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Sevda Əliyevaya anası

**Ziyada Gəray qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Uşaq cərrahlığı kafedrasının əməkdaşları professor Çingiz Quliyevə həyat yoldaşı

**Solmaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

### İstedadlı tələbə

**Reyhan Nəsibli 2003-cü ildə Sumqayıtda anadan olub. Hələ uşaqlıqdan ağxalatlı həkimlərdən xoşu gəlirmiş. Bu səbəbdən də həkim olmaq arzusuna düşüb. Ona görə də Bakı şəhər 191 saylı tam orta məktəbi bitirəndən sonra Azərbaycan Tibb Universitetinə daxil olub. Hazırda universitetin II Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsidir.**

**Reyhan dərslərini yaxşı oxuyur, istəyir ki, gələcəkdə savadlı həkim olub, insanların sağlamlığı keşiyində dayansın. Bununla yanaşı, o həm də gözəl rəsm əsərləri çəkir. Deyir ki, 3 bacıdırlar. Və hər üç bacı hələ uşaqlıqdan özünəməxsus zövqləri ilə bir-birindən gözəl rəsm əsərləri yaradır.**

# Həkimin rəngli dünyası



Reyhanın bildirdiyinə görə, bu həvəs onlara anaları Ülviyyə xanımdan keçib: "Anam ixtisasca kimya müəllimidir. Deyərdim ki, hətta insanlarla danışanda belə, onun fikirlərində kimyəvi reaksiyalar, kimyəvi tənliklər, laboratoriya təcrübələri və s. canlanır. Amma maraqlıdır ki, anam da rəngli boyalarla müxtəlif mövzularda rəsm əsərləri çəkir. Həmişə çəkdiklərini bizə göstərərdi. Görünür, rəssamlığa meyl mənə genetik olaraq anamdan keçib.

Atam da müəllimdir. Orta məktəbdə şagirdlərə coğrafiya fənnini tədris edir. Atamdan başqa hamımız rəsm əsərləri çəkirik. Amma ailə daxilində hansımızınsa əsəri müzakirə olunanda, o da bizə qoşulur və maraqlı fikirlər səsləndirir. Demək olar ki, ailəvi bu sənətin vurğunuyuq".

Maraqlı mövzulara müraciət edən R.Nəsibli rəsm əsərləri ilə ətrafdakıların diqqətini çəkə bilib. Onun hələ 4-5 yaşında çəkdiyi rəsmlər "Elli" və "Bala dili" jurnallarında nəşr edilib: "Əsərlərimi daha peşəkar səviyyədə çəkmək üçün rəsm kurslarına getmiş, bu sahədə bilik və bacarığımı artırmağa nail olmuşam. Rəsm çəkəndə əsəblərimdə bir sakitlik yaranır, stressimi atır, özümü daha yaxşı hiss edirəm. Ən çox film qəhrəmanlarının obrazlarını təsvir etməkdən zövq alır, gündüzlər işləməyi daha çox xoşlayıram. Hətta rəsm əsərlərindən ibarət sərgim də keçirilib. Təvazökarlıqdan uzaq olsa da, ilk sərgim 14 yaşımda olub və oradakı əsərlərim böyük maraqla qarşılanıb".

R.Nəsibli karandaş və yağlı boya ilə işləməyə daha çox üstünlük verir. Onun portretini çəkdiyi film qəhrəmanlarından biri aktrisa Deneris Tarqariendir. Onun amerikan yazıçısı və ssenaristi Corc Martinin "Buz və odun nəğməsi" romanı əsasında ekranlaşdırılmış "Taxtların oyunu" serialında ifa etdiyi rol Reyhanın çox xoşuna gəlib. Aktrisaya olan sevgisi portretin tez bir zamanda tamamlanmasına səbəb olub.

Gənc rəssamın ən çox sevdiyi aktyorlardan biri də britaniyalı Benedikt Kamberbetçdir. Onun yaratdığı obrazlar əsasən gənclərin yaddaşında bir iz salıb. "Qızıl qlobus", "Oskar" mü-





kafatları laureatı olan aktyor bir çox yaddaqalan rolların məharətli ifaçısı kimi tanınır. "Şerlok" teleserialının qəhrəmanı da Reyhanın "fırçasından yayınmayıb".

Hələ ki Azərbaycan filmlərinə müraciət etməsə də, həmişəlik hafizəsinə həkk olunmuş bir portretin tarixçəsini heç vaxt unutmur: "Rza babam çəkdiyim əsərlərlə çox maraqlanırdı. Həmişə də deyirdi ki, gələcəkdə yaxşı rəssam olacaqsan. Portretlərə xüsusi yanaşması var idi. Arada söz atdım ki, baba, istəyirsən, sənin də portretini çəkim. Razılıq verdi. Tez bir zamanda tamamladım və özünə göstərdim. Heyrətlə portretə baxdı. İlahi, məni necə bağrına basdı, o qədər təriflədi ki... Babamın portreti, onun sevinc qarışıq hərəkətləri həmişəlik hafizəmdə qaldı. Bu peşə ilə məşğul olduğum, babamı sevindirdiyim üçün özümü xoşbəxt sanırım".

**Əziz tələbələrimiz, əgər sizin də təhsil aldığınız ixtisasla yanaşı, hər hansı bacarığınız və ya hobbiniz varsa, universitetimizin "Təbib" qəzeti bunu işıqlandırmağa hazırdır. Bunun üçün bizimlə əlaqə saxlamağınız kifayətdir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 3661
Sayı 2250